ULUSLARARASI TÜRK LEHÇE ARAŞTIRMALARI DERGİSİ (TÜRKLAD), 3. CİLT, 1. SAYI, 2019, 133-139. S., TÜRKİYE

# ÜMUMTÜRK ƏDƏBİYYATINDA "DASTAN" ANLAYIŞI

*Aynur SEFERLİ*[*]


### Xülasə

Dastançılıq xalqın bir neçə əsrlik milli-məişət həyatını gözəllik və əlvanlığı, təzad və ziddiyyətləri ilə özündə əks etdirən öncül bədii düşüncənin məhsuludur.

Epik ənənə sadə təhkiyəçilikdən peşəkar ifaçılığa qədər inkişaf yolu keçmiş, milli dastan yaradıcılığı üçün erkən zəmin hazırlamışdır. Tədqiqatçılar mif formulalarını "qədim türk dastanı" vahidi kimi qəbul edib, dastan mətni kimi tədqiqata cəlb edirlər. Qədim türkün epik təfəkküründə daha qüdrətli bir yaradıcılıq ənənəsi –xalq nəsri formalaşmışdı. Baxşı yaradıcılığının yekunu kimi Mərkəzi Asiya eposu yaddaşda hələ yekunlaşıb başa çatmamışdır.

Bu regionun eposçuluq ənənəsindəki epik-romantik yaradıcılıq üslubu sonrakı dövr dastan yaradıcılığı üçün eyni, oxşar və analoji koordinatlarda davam etməkdədir. "Dastan" sözü çoxmənalı söz kimi bacarıq, məharət, hiylə nümayiş etdirən, həm də qəhrəmanlıq, sevgi macərasını əks etdirən əhvalat deməkdir. Bir istilah kimi bu söz musiqi havası, melodiya və b. mənalarda işlənməkdədir.

Qədim Türk dastanı əsasən e.ə I minilliyin ortalarında meydana çıxmışdır. Lakin epos ənənəsinə uyğun olaraq, daha qədim dövrlərin hadisələri, ictimai, etnik, estetik əhval-ruhiyyəsi də onlarda öz əksini tapmışdır. Məqalədə türk epos mədəniyyətinin üç mərhələsindən ( Qədim, Orta əsrlər, Yeni dövr türk epos mədəniyyətindən bəhs olunur. Türk-oğuz epik ənənəsinin əsas daşıyıcısı olan oğuznamələrin erkən orta çağlardan başlayaraq Şərq-islam konteksti daxilində öz əvvəlki fəal tarixi mövqeyini itirdiyi vurğulanır.


**Açar Sözlər:** Dastançılıq, Mif Yaradıcılığı, Türk Eposu, Cəngavərlik Həyatı, Türkün Həyat Tərzi

# GENEL TÜRK EDEBİYATINDA "DESTAN" ANLAYIŞI


### Özet

Destancılık halkın birkaç asırlık günlük yaşam tarzını, güzelliğini ve zarafetini, çelişkileri ve zıt taraflarıyla yansıtan ilkel sanatsal düşüncenin ürünüdür.

Destan geleneği, basit disiplinlerden profesyonel performanslara kadar geliştirilip ulusal destan yaratıcılığı için erken bir temel ortaya konulmuştur. Araştırmacılar mit formüllerini "eski Türk destanı" olarak kabul etmiş ve bir destan metni olarak araştırmalara katmışlardır. Kadim Türkün destansı zihniyetinde, daha kudretli bir yaratıcılık geleneği – halk nesri kurulmuştur. Bahşi yaratıcılığının bir sonucu olarak Orta Asya destanı hafızalarda henüz tamamlanmamıştır.

Bu bölgenin epik geleneğindeki epik-romantik yaratıcı tarz, epik yaratıcılığın bir sonraki dönemi için aynı, benzer ve anolojik düzlemlerde devam etmektedir. "Destan" ifadesi, çok anlamlı kelime olarak beceri, maharet, kurnazlık gösteren, aynı zamanda kahramanlık ve aşk macerasını yansıtan bir hikâye demektir. Bir terim olarak bu söz müzik, melodi vb. anlamlarda da kullanılmaktadır


[*] Bakü Devlet Üniversitesi Doktora Öğrencisi, Azerbaycan Diller Üniversitesi Öğretim Görevlisi. Bakü/AZERBAYCAN, el-mek: seferli_1988@bk.ru

ORCİD ID: https://orcid.org/0000-0002-0110-4569

Eski Türk destanı, ilk olarak MÖ bininci yılda ortaya çıkmıştır. Epos geleneğine göre, eski zamanların olayları, sosyal, etnik ve estetik ruh hâlleri de bu destanlarda yansıtılmıştır. Makalede, Türk destan kültürünün üç döneminden (Eski, Orta Çağ, Yeni Dönem Türk destan kültürü) söz edilmektedir. Ayrıca, Türk-Oğuz destan geleneğinin ana taşıyıcısı olan Oğuznamelerin erken orta çağlardan itibaren Doğu-İslami bağlam içinde önceki aktif tarihi konumlarını kaybettiklerinden de bahsedilmektedir.

Türk-Oğuz epik ənənəsinin əsas daşıyıcısı olan oğuznamələrin erkən orta çağlardan başlayaraq Doğu-İslami bağlam bağlamında önceki aktif tarihsel konumunu kaybettiğinin altını çizdi.

**Anahtar Sözcükler:** Destan, Efsanevi Yaratıcılık, Türk Destanları, Savaş Hayatı, Türk Yaşam Tarzı

## UNDERSTANDING OF THE SAGA IN THE GENERAL TURKISH LITERATURE

### Abstract

Sagaism is the product of the primitive artistic thought, which reflects the centuries-old national-home life of the nation with its beauty and elegance, contradictions and contradictions.

The epic tradition was developed from simple disciplines to professional performances and developed an early basis for the creation of a national saga. The researchers adopted the myth formulas as "the ancient Turkish epic" and participate in the studies as a saga. In the epic mentality of the ancient Turkic language, a more powerful tradition of tradition - a generation of generations - was formed. As a result of his work, the Central Asian epic was not completed in memory. Epic romantic creative style in the epic tradition of this region continues in the same, similar and similar coordinates for the next era of epic creativity. The phrase "Dastan" is a story that reflects the skill, skill, craftiness and heroism, love adventure. As an intrusion, this phrase is music, melody, and so on.

The ancient Turkish epic was mostly found in the middle of the 1st millennium BC. However, according to the epic tradition, the events of the ancient times, social, ethnic, aesthetic moods were also reflected in them.

The article considers three stages of the Turkish epic culture (Ancient, Medieval, New Turkish Epic Culture). It is emphasized that the residents, who are the main carriers of the Turkish-Oguz epic, lost their former active historical position in the Eastern Islamic context from the early Middle Ages.

**Key Words:** Ancient Turkish Epic, Turkish Epic Culture, Turkish Oguz Epic

Dastançılıq xalqın bir neçə əsrlik milli-məişət həyatını gözəllik və əlvanlığı, təzad və ziddiyyətləri ilə özündə əks etdirən öncül bədii düşüncənin məhsuludur. İnsan həyatı və taleyinin keşməkeşli növrağı ilə bizə tanış olmağa imkan verən təhkiyəçilik insanın özünün təkamülü ilə bağlı davam edən maraqlı və canlı yaradıcılıq prosesidir. Burada söz sırası sadə, ardıcıl, mənası aydın, tutumu konkret, fikrin ifadəsi başa düşülən, tez anlaşılan olur. Emosional ifadə və deyim tərzləri, pantomim hərəkətlər, himcimlərlə fikrin ifadəsi epik üslub sistemində mövcud deyil, bunlar ifadə olunmuş fikrin psixoloji məqamlarının dürüstləşməsinə və tamamlanmasına xidmət edir. Epik ənənə sadə təhkiyəçilikdən peşəkar ifaçılığa qədər inkişaf yolu keçmiş, milli dastan yaradıcılığı üçün erkən zəmin hazırlamışdır (Пропп, 1958: 64). V.M. Jirmunskinin yazdığı kimi "epik üslub həyatı dərk etmənin geniş hüdüdlarını müəyyənləşdirdi, ağız ədəbiyyatında böyük və ənənəvi hadisə yaratdı" ki, bu da şifahi sözü bədii həqiqətə, həyatın və onun geniş, zəngin mahiyyətini öyrənməyə gətirib çıxardı. Bu da təhkiyəçiliyin tarixi

yüksəlişi və onun nəticə olan epos yaradıcılığının meydana çıxması ilə şərtləndi (Жирмунски, 1974: 213). Bir çox estetik, mənəvi-əxlaqi, etik və hüquqi dəyərləri özündə cəmləşdirən epos yaradıcılığı hər bir etnosun mənəvi dəyərləri ilə bağlı olub, onun sivil səviyyəsinin istiqamətləri və hüdudlarını ifadə edir. Mif yaradıcılığı sistemində təkamülünün yeni mərhələsində yüksələn epik üslub təhkiyəçiliyin tarixi yüksəlişini şərtləndirməklə yanaşı epos yaradıcılığı üçün də ilkin zəmin hazırladı. Ulu əcdadlarımız qədim türklər də dünyanın yaranması, etnosun meydana gəlməsi, dünyanı dərk etməsi ilə bağlı zəngin mif sistemləri yaratdı. Həmin miflər epik üslubun məhsulu olmaqla yanaşı estetik bədii dəyər etibarilə kamil nümunələr idi. Türk mifoloji düşüncəsində tanrıçılıq estetik düşüncənin yükunu kimi mənəvi, əxlaqi, estetik dəyərlərə söykənirdi. Ancaq türk mifoloji sistemi epik üslubu irəli aparmadı. Bu da türk dastanlarını və bu dastanların peşəkar improvizatorçuların-ozan ifaçılıq institutunun yaranmasına gətirib çıxartdı. "Qədim türk dastanı" şərti formuladır. Tədqiqatçılar mif formulalarını "qədim türk dastanı" vahidi kimi qəbul edib, dastan mətni kimi tədqiqata cəlb edirlər. Bunu da bir neçə səbəblə izah etmək olar. Birincisi, dastan yardıcılığı ərəfəsində yaranan mif mətnlərinin süjetlərində qədim türk dastanının cizgiləri əks olunmaqda idi; ikincisi hər iki formula epik təfəkkürün modeli idi; üçüncüsü, müxtəlif türk qövmləri arasında uzun zaman davam etməkdə olan mif yaradıcılığının konkret bir zaman hüdudunda bütün türk tayfaları içərisində funksiyalarını itirməsi nəzərə çarpan hadisə deyildi. Müxtəlif ictimai-siyasi, coğrafi faktlar, demoqrafik və miqrasiya prosesləri ayrı-ayrı türk tayfaları içərisində mif yaradıcılığının tərəqqi və tənəzzülünün zaman hüdudlarını müəyyənləşdirmişdir. Bu səbəbdən həmin kəsimin bütün tarixi inkişaf dövrləri şərtiliklərə əsaslanır. "Qədim türk dastanı əsasən e.ə I minilliyin ortalarında meydana çıxmışdır. Lakin epos ənənəsinə uyğun olaraq, daha qədim dövrlərin hadisələri, ictimai, etnik, estetik əhval-ruhiyyəsi də onlarda öz əksini tapmışdır" (Cəfərov, 1999: 15-16). Bu dastanların bizə gəlib çatmasının, daha doğrusu onların erkən qaynaqlar kimi tədqiqatlara cəlb edilməsinin də tarixi o qədər qədim deyildir. Bunun məlum səbəbləri də təbii ki, müxtəlifdir. Bundan əlavə bu dastanların demək olar ki, hamısı bizə müxtəlif təsvirlərdə, şərh, izah və qeydlərdə gəlib çatmışdır. Məzmun və sujetlərin çoxu bir çox hallarda ya tam deyil, ya da "müasirləşdirilmiş", müəyyən məqamları təhrifə məruz qalmışdır. Çin və İran mənbələrində mühafizə olunmuş qədim türk dastanlarında (əslində dastan sujetlərində) nəinki bir sıra motivlər, hətta adlar belə dəyişikliyə məruz qalmış, türk adları Çin və İran adları ilə əvəz edilmişdir. Bütün bunlarla bərabər, qədim türk dastanları qədim (ümum) türk eposunu rekonstruksiya etmək üçün hələlik yeganə mühüm mənbələrdir..." (Cəfərov, 1999: 16).

Bu mənbələr bir neçə cəhətdən diqqəti cəlb edir. Birincisi, həmin dastanlar nə qədər təhrifə uğramış olsalar da, dünya eposunun qüdrətli bir qolu olan türk eposunun başlanğıcı, erkən qaynaqlarıdır. Mif yaradıcılığından sonrakı dövrdə epik üslubun geniş bədii imkanlarını-etnosun yeni tarixi həqiqətə və fakta əsaslanan ənənələrini əks etdirir və bədii təsəvvürdə epik düşüncənin əvvəlkilərdən tamamilə fərqli yeni formasıdır. İkincisi, epik ənənə qədim türk dastanlarında yeni mərhələyə qədəm qoyur, abstrakt, xaotik düşüncədən sistemli düzümə, bədii dərketməyə keçir və bu ənənənin improvizatorçuları, yaradıcıları, qismən sonrakı dövrlər üçün səciyyəvi olan peşəkar ifaçıların formalaşma prosesi başlayır.

Üçüncüsü, mifologiyaları yaddaşlarda soldurmuş, özü də hansısa zaman kəsimində milli yaddaşda rekonstruksiyalara məruz qalmış türk eposu, qədim türk dastanlarının bir çox struktur sistemləri və formulalarını məharətlə davam və inkişaf etdirmişdir. Həmən özünəməxsusluqlara bələd olmadan türk eposu sistemini mənimsəmək bir qədər abstrakt və qeyri-real görünə bilər.

Qədim türk dastanları türkün əski tarixinin bir çox önəmli fakt və hadisələrini əks etdirməklə yanaşı, eyni zamanda epik ənənədə türk düşüncəsini gözəllikləri və özünəməxsusluqlarını yaşatmaq baxımından da diqqəti cəlb edəndir (Nəbiyev, 2009: 458-459).

Qədim türkün epik təfəkküründə daha qüdrətli bir yaradıcılıq ənənəsi –xalq nəsri formalaşmışdı. Onun erkən nümunələri kimi milli yaddaşda qədim türk dastanı tipi - "Alp-Ər-Tunqa", "Şu", "Oğuz Xaqan", "Ərgənəkon" və b. qalmışdı (Nəbiyev, 2002: 483-507). Yazılı

qaynaqlarda isə “Onigin”, “Tonikik”, “Gül Tigin” və “Bilgə xaqan” bizlərə gəlib çatmışdı ( Cəfərov, 2004: 10-11).

Tarixi yaradıcılıq ənənələrinin çarpazlaşması, alplıq və cəngavərlik həyatı, qəbilə və tayfa münasibətlərinin kəskinləşməsi dövrünün bədii düşüncəsi isə türkün epik yaddaşında yeni bir hadisəni-eposçuluğu formalaşdırmışdı ( Kiselyov, 1951: 147).

Türk xalqlarının eposçuluq ənənələri məhdud çərçivədə qalmamışdı. Bir tərəfdən qüdrətli oğuz eposçuluğunu yaradan türklər, eyni zamanda Altay və Mərkəzi Asiyada bu yaradıcılıq ənənəsini davam və inkişaf etdirərək “Manas”, “Alpamış”, “Maday Qara” və onların silsilə variantlarını yaratmışdılar (Жирмунски, 1974: 176). Bu eposların bir çoxunda türk xalqları üçün ənənəvi sujetlərdən olan övladsızlıq, qeyri-adi doğuluş, qeyri-adi nikah və toy, ərin öz toyuna gəlib çıxması, dağ və dağlarda qəhrəmanlıq, doğulan uşağın itirilməsi və sonradan tapılması, övlad əldə etmənin müxtəlif formaları, qız arxasınca getmə, döyüş meydanında doğmaların üz-üzə gəlməsi və bir-birini tanıması kimi daha bir sıra oxşar motivlər yeni yaradıcılıq mərhələsi keçmişdi. Bununla belə, Oğuz eposu ilə Qıpçaq eposunu bir-birindən ayıran və fərqləndirən cəhətlər də az deyildir. Ən böyük fərq yaradıcılıq ənənələrində idi. Qıpçaq eposu - Mərkəzi Asiya, Altay və Türküstan eposları da daxil olmaqla epik-romantik yaradıcılıq ənənəsinə əsaslanır. Burada Kunqrat, Altay və Qırğız, Türkmən, eləcə də bütün digər tayfaların həyatı ilə bağlı tarixi həqiqətlər epik-romantik yaradıcılıq ənənəsi arxasında epikləşir. Oğuz eposu isə tarixi-epik yaradıcılıq ənənəsinə uyğun olaraq yaranıb inkişaf edirdi. Əgər Mərkəzi Asiya eposu qəhrəmanlıq sərgüzəştləri, İrəm bağı, sehrli qüvvələr, yeraltı dünya səltənəti və s. bağlı epizodları əhatə edirsə, Oğuz eposu real qəhrəmanlıq hadisələri və epizodlarına əsaslanırdı.

Baxşı yaradıcılığının yekunu kimi Mərkəzi Asiya eposu yaddaşda hələ yekunlaşıb başa çatmamışdır.

“Manas” baxşı repertuarında yaradıcılıq mərhələsini davam etdirməkdədir. Bu regionun eposçuluq ənənəsindəki epik-romantik yaradıcılıq üslubu sonrakı dövr dastan yaradıcılığı üçün eyni, oxşar və analoji koordinatlarda davam etməkdədir.

Oğuz eposunda isə mənzərə bir qədər fərqlidir. Ozan improvizatorçuluq institutunun süqutu ilə onun bir çox funksiyaları aşıq ifaçılığı intitutuna transilə edilmiş və “Dədə Qorqud” silsiləsi bu yaradıcılığın zirvəsi kimi yaddaşa yazılmış, orta əsrlərin başlanğıcında isə yazıya alınıb kitaba çevrilmişdir. Bütövlükdə “Dədə Qorqud” hafizədən silinmiş, onun ayrı-ayrı süjet, motiv və obrazları türk eposuna səpələnmişdir. “Dədə Qorqud”un sonrakı dünya səyahəti yalnız onun yazılı taleyi ilə bağlı olmuşdur.

“Dastan” sözü çoxmənalı söz kimi bacarıq, məharət, hiylə nümayiş etdirən, həm də qəhrəmanlıq, sevgi macərasını əks etdirən əhvalat deməkdir. Bir istilah kimi bu söz musiqi havası, melodiya və b. mənalarda işlənməkdədir. Bu sözün ikinci dərəcəli mənaları da az deyil ki bunlar da sabit mənalar olmamışdır. Müxtəlif əsərlərdə bu mənaların bəzisi tez-tez və geniş şəkildə işlənmiş, bəziləri isə unudulmuşdur. Lakin belə mənalar nə qədər çox olsa da, dastandan bütün əsrlərdə daha çox ədəbi istilah kimi istifadə edilmiş, indi də edilməkdədir. Geniş mənada isə bədii əsər mənasını daşıyan bu sözü əhvalat, hekayət, macəra, tərifnamə, tərcümeyi-hal, eyni zamanda rəvayət, hətta xalq romanı, xalq kitabı mənalarını daşımışdır (Təhmasib, 1972: 57).

“Dastan” eyni zamanda “boy”, “qol”, “qissə”, “nağıl” da adlandırılmış, zaman keçdikcə onun janr xüsusiyyəti başqa ədəbi nümunələrlə müqayisədə araşdırılıb öyrənildikcə o, spesifik xüsusiyyətlərə malik bədii nümunə kimi xalq ədəbiyyatında elə dastan adı ilə sabitləşmişdir. “Həmişə olmuş əhvalat, baş vermiş hadisə, tarixi həqiqət kimi” qəbul edilmişdir.( Təhmasib, 1972: 61)

Təbii ki, aşıq repertuarında yaranan və erkən orta əsr şifahi yaradıcılığının mühüm hadisəsi olan dastanla epos arasında ümumi, müştərək, bənzər xüsusiyyətlər olduğu kimi, onları bir-birindən ayıran cəhətlər də mövcuddur. Ümumilikdə deyə bilərik ki, hər ikisi bədii

improvizə vahididir, şifahi bədii düşüncənin məhsuludur, yaddaşda yaşayaraq müəyyən zaman hüdudlarını aşmış, tək-tək hallarda istisna edilərsə epik ənənəyə, peşəkar təhkiyə üslubuna əsaslanmışdır. Oğuznamələrlə dastanların struktur tərkibində, süjet, motiv və obrazlar sistemində də ümumilik və bənzərliklər yetərincədir.

Epos böyük bir qəbilənin, tayfanın, elin müəyyən tarixi dövrdəki mənəvi-əxlaqi, etik-estetik, sosial, ictimai-siyasi və milli düşüncə layını, dövlətçilik ənənələrini özündə əks etdirir. Dastan isə ilk öncə fərdi keyfiyyət göstəricilərinin məcmuudur. Eposda qəhrəmanlar silsiləsi fəaliyyətdədir, dastan isə baş qəhrəmana qarşı duran və ona kömək edən obrazlarla əhatə olunur. Eposda bütün elat hamını birləşdirən vahid bir məram-elin, tayfanın şərəf və ləyaqətinin qorunmasına səfərbərdir. Belə nümunələrdə baş qəhrəman döyüşən, vuruşan, öz mənliyini, bütövlüyünü, vətənin sərhədlərini, məişət və birgəyaşayış qaydalarını, əxlaq və rəftar normalarını qoruyub saxlamaq üçün hər cür cəfalara dözməyə hazır olan bütöv tayfa, el, xalqdır. "Kitabi Dədə Qorqud"un ən yenilməz, ən böyük baş qəhrəmanı Oğuz eli olduğu kimi...

Məhəbbət dastanlarında baş qəhrəman fərddir. Cəmiyyətdə azad sevgi, xoşbəxt həyat, toxunulmaz insan hüquqları uğrunda, onları pozub tapdalayan hökmdarlara, din xadimlərinə, tacir-zədəganlara və sadəcə olaraq sosial üstünlüklərə malik rəqiblərə qarşı dayanan aşiqlərdir. Məhəbbət dastanlarında ictimai məzmun nə qədər yüksək olsa da, buradakı hadisələr cəmiyyət həyatının ən müxtəlif cəhətlərini nə qədər intəhasızlıqla əks etdirsə də o, epos düşüncəsi səviyyəsinə yüksələ bilmir. Ziddiyyət və təzadları, əkslikləri qoyulmuş yasaqlıqlar sərhəddində əks etdirməklə kifayətlənir.

Epos daha geniş dünyagörüşlər məcmuu kimi özündə müxtəlif baxışları, təzad və ziddiyyətləri əks etdirməklə cəmiyyətin sarsıntı və irəliləyişlərini də əhatə edir.

Dastan yaradıcılığının eposla qarşılıqlı təmasının, xüsusiyyətinin müşahidəsi də onunla bağlı mövcud mülahizələrə yeni baxışı nəzərə çarpdırır.

Məhəbbət dastanlarının tarixi yüksəlişinin yeni mərhələsində ictimai-siyasi və sosial münasibətlərin kəskinləşmə məqamında yenidən epos yaradıcılığı mühiti yarana bilər və "Koroğlu" buna ən yaxşı nümunədir."Koroğlu" məzmun çevrəsinə görə eposdur, janr xüsusiyyətinə görə dastan formasına yaxın yeni epos tipidir. Struktur sxemində eposçuluq modelindən istifadə güclüdür. Həm də dastan tələbləri əsasında yarandığı da aydın nəzərə çarpır, epik yaradıcılıqda qəhrəmanlıq eposunun yeni forması kimi səciyyələnir. Düşüncədə yeni eposçuluq hadisəsi olan "Koroğlu" aşıq repertuarının yaratdığı təzə, sonradan təkrar olunmayan yaradıcılıq nümunəsidir. O, eposçuluğun yenidən aşıq yaradıcılığına qayıtdığını göstərir.( Nəbiyev, 2006: 339-341)

İstər strukturalistlər, eləcə də V.Y.Propp məktəbinin ardıcılları və davamçıları, istərsə müqayisəli-tipoloji araşdırmaların baniləri və davamçıları-V.M.Jirmunski, X. H. Zərifov, X.H.Koroğlu və başqaları etnik mahiyyət, estetik dəyər və məzmun göstəricilərinə, süjet, motiv və obrazlararası bənzərlik və oxşarlıqlara görə eposları təsnif etməyin daha çox məqsədəuyğun olduğunu göstərmişlər. Bir sıra mülahizələrdə "epos" anlayışına münasibət fərqlidir. Məsələn, V.M. Jirmunski ehtimal edir ki, bizə gəlib çatan qədim altay eposu hələ epos deyil, ancaq qəhrəmanlıq nağılıdır və bu mülahizə haqlı olaraq İ.V.Puxov tərəfindən tənqid edilmişdir (Jirmunski, 1961: 151). S.V.Kiselyova görə isə əks etdirdiyi qədim elementlərə görə altay eposu VI-VIII əsrlərin yaradıcılıq məhsuludur (Kiselyov, 1951: 548). O, Eyni zamanda eposun yaranmasını altayların qədim qəhrəmanlıq həyatı ilə bağlayır və belə bir mülahizə irəli sürür ki, epos xalqın, bütövlükdə qəhrəmanlığın bədii salnaməsidir, sonrakı dövrün dastan yaradıcılığı isə romantik ənənəyə əsaslanan məhəbbət macəralarının epik-lirik bədii əksidir (Jirmunski, 1961: 552). Eposla dastan yaradıcılığı məsələlərinə S.V.Puxov da aydınlıq gətirməyə təşəbbüs edir. Tarixi inkişaf qanunlarından çıxış edən S.V.Puxov göstərir ki, xalqların tarixi-qəhrəmanlıq, bahadırlıq və alplıq ənənələri epos materialını, sonrakı dövrlərin tayfa həyatının sevgi macəraları epik-romantik dastan yaradıcılığını formalaşdırmışdır".

Təbii ki, epos düşüncəsi türk təfəkküründə daha geniş anlamda götürülməli, onun erkən orta əsrlərdən Azərbaycan aşıqlarının repertuarında dastançılığın meydana çıxarmasındakı tarixi rolu dürüstləşdirilməlidir. Çünki epik düşüncədə baş verən ən mühüm eposçuluq hadisələri ümumdünya eposu kontekstindən kənarda yox, onunla bilavasitə sıx vəhdətlə, yaxud onun təsiri ilə həyata keçmişdir. Belə bir mülahizə daha əsaslı səslənir ki, “Dünya epos mədəniyyətinin tərkib hissəsi olan türk epos mədəniyyəti üç mərhələdən keçir:

1.Qədim türk epos mədəniyyəti

2.Orta əsrlər türk epos mədəniyyəti

3.Yeni dövr türk epos mədəniyyəti (Nəbiyev, 2006: 345-346)

Qədim türk-oğuz epik ənənəsi ilkin çağlardan erkən orta yüzilliklərəcən poetik düşüncə və bədii təxəyyülün gücüylə türk mənəvi-mədəni sisteminin, atlı həyat tərzindən doğan etnik yaşam biçiminin, bahadırlıq, cəngavərlik duyğusunun yaşaması işinə xidmət etmişdir. Qədim türk epos mədəniyyəti içərisində önəmli yer tutan oğuznamələrdəki etnik yaşantılar bu tarixi gerçəkliyin danılmaz görüntüsüdür.

Türk-oğuz ənənəsində şifahilik prinsipi əsas rol oynadığından, yəni epik mətnin nəsildən-nəslə, yüzildən-yüzilə ötürülməsində, habelə etnik-mədəni areal boyu yayılmasında yazı amili iştirak etmədiyindən türk dastançılığında evolyusiya və transformasiyanın hansı şəkildə getdiyini konkret cizgilərlə aydınlaşdırmaq çətindir.

Bilindiyi kimi, türk-oğuz epik ənənəsinin əsas daşıyıcısı olan oğuznamələr erkən orta çağlardan başlayaraq Şərq-islam konteksti daxilində öz əvvəlki fəal tarixi mövqeyini itirməyə başlamış, XV-XVI yüzilliklərdə isə demək olar ki, tamamilə arxa plana çəkilmiş və unudulmaq dərəcəsinə gəlmişdir.

İstər şifahi, istərsə də yazılı ədəbiyyatda “dastan” daha çox ədəbi istilah kimi işlədilmiş və əhvalat, hekayə, rəvayət, macəra, tərifnamə, tərcümey-hal, hətta tarix anlamı daşımışdır. Azərbaycan ədəbiyyatında Nizami Gəncəvi öz məsnəvilərini “dastan” adlandırmışdır.

Yüzillər boyunca türkün həyat tərzinin, duyum və düşüncə biçiminin əsas axarını bahadarlıq, cəngavərlik təşkil etdiyindən etnik-mənəvi sistemin güzgüsü olan folklorda, o cümlədən də dastançılıq ənənəsində qəhrəmanlıq motivinin geniş və qabarıq yer alması təbii-tarixi zərurətdən irəli gəlmişdir. Qədim türk cəmiyyətində dastan təfəkkürü istisnasız olaraq bahadırlıq düşüncəsinin obrazlaşdırılmasına yönəldiyindən həmin mərhələyə məxsus epik ənənənin özəyində qəhrəmanlıq motivi və motivin ifadəsi olan çeşidli qəhrəmanlıq süjetləri durur. Sonrakı tarixi dövrlərdə epik düşüncədə lirik təmayül də müəyyən yer tutmağa başlayır, bu zaman məhəbbətlə qəhrəmanlıq hüdudlarında dayanan, bir növ hər iki motivin qovuşuğunu əks etdirən dastanlar ortaya çıxır. Epik ənənədə lirik təməyülün güclənməsi sırf məhəbbət motivinə bağlı dastanların meydana gəlməsilə də nəticələnir. Orta çağ aşıq ədəbiyyatı məhəbbətin gerçək və simvolik-fəlsəfi-ürfani anlamlarını qovuşuğa gətirərək özünəməxsus sənəd keyfiyyətlərinə malik məhəbət dastanları ortaya çıxartmışdı. Məhəbbət dastanları sfesifik sujet və kompozisiya tərkibinə malik olan orjinal epik folklor örnəkləridir.

Dünya xalqlarının əksəriyyətində, o cümlədən də türk folklor ənənəsində qəhrəmanın qeyri-adi, möcüzəli doğuluşu geniş yayılmış bir motivdir. İlkin ibtidai təxəyyülün məhsulu olan nağıllarımızda da möcüzəli doğuluşa tez-tez rast gəlinir. Dastan qəhrəmanları da qeyri adi doğuluşu ilə seçilir. (Azərbaycan Dastanları, 2005: 4-6)

**Nəticə**

Nəticə olaraq bunu deyə bilərik ki, araşdırmada dastan anlayışının ümumtürk fonunda araşdırılması çox da rast gəlmədiyimiz mövzu olduğu üçün diqqətimi cəlb etdi. Araşdırma nəticəsində bir daha şahidi olduq ki, dastançılıq xalqın bir neçə əsrlik milli-məişət həyatını gözəllik və əlvanlığı, təzad və ziddiyyətləri ilə özündə əks etdirən öncül bədii düşüncənin

məhsuludur. Qədim türk dastanları türkün qədim tarixinin bir çox önəmli fakt və hadisələrini əks etdirməklə yanaşı, eyni zamanda epik ənənədə türk düşüncəsini gözəllikləri və özünəməxsusluqlarını yaşatmaq baxımından da diqqəti cəlb edəndir. Məqalədə "dastan" və "epos" anlayışlarının müqayisəli metodla araşdırılmaya cəlb olunması hər iki anlayış arasında fərqi aydın şəkildə ortaya qoyur. "Epos"un böyük bir qəbilənin, tayfanın, elin müəyyən tarixi dövrdəki mənəvi-əxlaqi, etik-estetik, sosial, ictimai-siyasi və milli düşüncə layını, dövlətçilik ənənələrini özündə əks etdirdiyi halda, dastan isə ilk öncə fərdi keyfiyyət göstəricilərinin məcmuudur.

**Ədəbiyyat**


Azərbaycan Dastanları (2005*). Beş ciliddə. I cild*. Bakı.

Cəfərov, N. (1999). *Eposdan Kitaba*. Bakı.

Cəfərov, N. (2004). *Qədim Türk Ədəbiyyatı*. Bakı.

Nəbiyev, A. (2002). *Azərbaycan Xalq Ədəbiyyatı*. Bakı.

Nəbiyev, A. (2006). *Azərbaycan Xalq Ədəbiyyatı. 2 Ciliddə, II Cild (Orta Əsr və Yeni Dövr Folklor Yaradıcılığı)*, Bakı.

Nəbiyev, A. (2009). *Azərbaycan Xalq Ədəbiyyatı*. Bakı.

Təhmasib, M. H. (1972). *Azərbaycan Xalq Dastanları (Orta Əsrlər).* Bakı.

Жирмунски, В. М (1961). Сказание об Алпамыше и Богатрская Сказка, Москва.

Жирмунски, В. М. (1974). Тюрский Героический Епос, Москва.

Киселйов С.В (1951). Древная История Южной Сибири, Москва.

Проп, В. Й. (1958). Русский Героический Эпос, Москва.